*Cari ilin doqquz ayının yekunları*

# Mingəçevir yeni inkişaf mərhələsində

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı qeyd etmişdir ki, dünya iqtisadiyyatında böhran davam edir və təbii ki, mövcud vəziyyət Azərbaycanın iqtisadi inkişafına da öz mənfi təsirini göstərməkdədir. Lakin 2016-cı il ölkə iqtisadiyyatı üçün ən çətin və ağır il olmasına baxmayaraq 9 ayın nəticələri bütövlükdə yaxşıdır. Ölkə sənayesinin qeyri-neft sektoru ötən doqquz ayda 3,6 faiz, kənd təsərrüfatı sektoru 2,4 faiz artıma nail olmuşdur.**

Mingəçevir şəhərində ötən 9 ayda bir sıra müsbət göstəricilər əldə olmuşdur. 2016-cı ilin yanvar-sentyabr aylarında şəhərin istehsal müəssisələrində 140,7 milyon manatlıq sənaye məhsulu istehsal olunmuş, tikinti-quraşdırma işlərinə 22,2 milyon manat vəsait xərclənmiş, əsas kapitala 23,4 milyon manat vəsait yönəldilmiş, istehsal bazarında 241,7 milyon manatlıq satış olmuş və xidmət göstərilmişdir.

Bu günlərdə Mingəçevir Şəhər İcra Hakimiyyətində keçirilən Şura iclasında cari ilin 9 ayında görülmüş işlər geniş təhlil olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı **Niyazi Bayramov** qeyd etmişdir ki, bu il sentyabrın 21-də Mingəçevirdə səfərdə olmuş ölkə Prezidenti cənab İlham Əliyev şəhərimizdə aparılan abadlıq və quruculuq işləri ilə tanış olmuşdur. Dövlət başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra, yeni açılmış Tarix muzeyində olmuşdur. Keçmiş Toxuculuq kombinatının ərazisində inşa ediləcək Mingəçevir Sənaye parkının təməlqoyma mərasimində iştirak etdikdən sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşərək geniş müşavirə keçirmişdir. Daha sonra cənab Prezident "Sahil" və "Füzuli" parklarında aparılan abadlıq və quruculuq işləri ilə tanış olmuşdur.

Görülən işlərə yüksək qiymət verən dövlət başçısı, səfərin nəticəsi kimi şəhərdə aparılan işlərin miqyasının genişləndirilməsi və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün çoxmənzilli yaşayış binalarının dam örtüklərinin əsaslı təmiri üçün 5 milyon manat əlavə maliyyə yardımı etmişdir.

Ölkə rəhbəri Mingəçevirdə olarkən verdiyi tapşırıq və göstərişlər şəhər İcra Hakimiyyəti tərəfindən gündəlik fəaliyyət proqramı kimi qəbul edilmiş və görülən işlərin miqyası genişləndirilmişdir.

2016-cı ilin doqquz ayında yuxarıda qeyd olunan işlərlə yanaşı Nizami, Dilarə Əliyeva küçələrində, Səməd Vurğun meydanında, "Sahil" parkının artırılmış hissəsində, 13, 14, 16, 75, 87, 94 saylı məhəllələrdə 190 ədəd yeni işıqlandırma sistemləri quraşdırılmış, küçə və məhəllədaxili ərazilərə 3,7 min kvadratmetr dekorativ tamet döşənmiş, 4,8 min metr səki daşları düzülmüş, 50 min kvadratmetrdən çox asfalt örtük salınmış, əsaslı təmir olunan dam örtüklərinə 11 min kvadratmetr metal kirəmit çəkilmişdir.

Şəhərin sənaye məhsulu istehsalı müəssisələri Azərbaycan İstilik Elektrik Stansiyası, SES Silsiləsi MMC-lər, "Azneftemaş", "Akkord" Maşınqayırma, "Mingəçevir-İzolit" ASC-lər mövcud imkanları daxilində fəaliyyətlərini təmin etmişlər. İstehsal olunan sənaye məhsulunun 90 faizini təşkil edən Azərbaycan İstilik Elektrik Stansiyasında 9 ayda 4,7



milyard kilovatsaat, SES silsiləsində 458 milyon kilovatsaat elektrik enerjisi istehsal olunmuşdur.

9 ay ərzində Şəhər Elektrik Şəbəkəsi tərəfindən şəhər üzrə 8 transformator məntəqəsində yeni transformatorlar quraşdırılmış, müxtəlif ünvanlarda 15 km-dən artıq SİP kabel xətti çəkilmiş, 18, 24 və 30 saylı hava xətlərində cəmi 2300 metr zədəli naqillər yenilənmiş, müxtəlif xətlərdə cəmi 74 ədəd yeni dəmir-beton və 466 ədəd metal dayaqlar basdırılmış və sair zəruri texniki xidmət işləri görülmüşdür. Əhalinin istehlak etdiyi elektrik enerjisinin haqqı tam ödənilmişdir.

Qaz İstismar Xidməti tərəfindən hesabat dövründə müxtəlif diametrli 305 m yeraltı, 2500 m yerüstü qaz xətti çəkilərək 9 ədəd yeni şkaf tipli qaztənzimləyici məntəqə, 3 ədəd yeni siyirtmə quraşdırılmışdır. 4009 ədəd qaz sayğacı yenilənmişdir. Hesabat dövründə əhali sektorunun ödənişi 102,0 faiz təmin edilmişdir.

Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi tərəfindən 9 ay ərzində 3300 ədəd müxtəlif növ ağac tingləri, 18 min ədəd müxtəlif növ mövsumi çiçək əkilmişdir.

Cari ilin 9 ayı ərzində Mənzil Kommunal Təsərrüfatı Kombinatının xidməti ərazisində 15 yaşayış evinin yumşaq dam örtüyü cari təmir edilmiş, əhalinin isti su ilə təchizatının yaxşılaşdırılması üçün müxtəlif diametrli 85 metr yararsız boru yenisi ilə əvəz edilmişdir. İnzibati ərazidə 1714 ədəd ağac əkilmiş və C.Əliyev küçəsində salınmış parkda fontan quraşdırılmış, hazırda tamamlama işləri aparılır. Məhəllələrdə sakinlərin istirahəti üçün 103 ədəd oturacaq qoyulmuşdur.

Liftlərin Quraşdırılması, Təmiri və Xidməti İdarəsi yüksək mərtəbəli evlərdəki 48 ədəd sərnişin liftinə texniki xidmət və təmir işlərini yerinə yetirmiş, 1250 nəfər yaşayışçıya lift xidməti göstərmişdir.

Hazırda liftlərin hamısı işlək vəziyyətdədir.

8 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsinin əməkdaşları hesabat dövründə aparılan yoxlama və araşdırmalar zamanı 27 akt və 8 protokol tərtib etmişlər. Ətraf mühitin mühafizəsi haqqında qanunun tələblərini pozan şəxslərə 15 məcburi göstəriş təqdim edilmişdir.

Hazırda Mingəçevir şəhərində 5448 məcburi köçkün ailəsi və ya 20486 nəfər məcburi köçkün məskunlaşmışdır. Sosial-məişət problemlərinin həlli istiqamətində şəhər rəhbərliyi məcburi köçkünlərin məskunlaşdıqları tikililərin dam örtüklərinin təmirində, su ilə təchizatında, kanalizasiya xətlərinin təmirində yaranmış problemlərin həllində imkan daxilində köməkliklər göstərir. Vaxtaşırı məcburi köçkün rayonların Mingəçevir şəhərindəki səlahiyyətli nümayəndələri ilə görüşlər keçirilir, onlarla birgə məcburi köçkünlərin sosial məişət problemlərinin həlli yolları müzakirə edilir və müvafiq tədbirlər görülür.

Bu il XI sinifləri 781 nəfər bitirmiş, buraxılış imtahanlarında 779 şagird iştirak etmiş, onlardan 651 nəfəri imtahanları müvəffəqiyyətlə vermişdir.

IX sinfi 1017 şagird bitirmiş, imtahanlarda 1016 nəfər iştirak etmiş, 825 nəfər müsbət nəticə göstərmişdir.

Hesabat dövründə fənn olimpiadalarının finalında iştirak edən 12 şagird qalib gələrək 2 qızıl, 3 gümüş, 7 bürünc medal qazanmışlar.

XI sinfi bitirərək attestat alanların 562 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 390 nəfəri tələbə adını qazanmışlar.

Şəhərin 3 ümumtəhsil məktəbində (1, 7, 9 saylı) əsaslı təmir işləri yekunlaşmışdır.

Şəhər Mərkəzi Xəstəxanasının 12 struktur bölməsində 2196 nəfər tibb işçisi çalışmış, fevral, may aylarında ölkə Prezidentinin tapşırığına əsasən 3 tibbi məntəqədə 77426 nəfər şəhər sakini tibbi müayinədən keçirilmişdir.

Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən hesabat dövründə Polis şöbəsi ilə birgə reydlər keçirilmiş, ayrı-ayrı ərazilərdə qanunsuz, sanitar normalara uyğun olmayan şirəli-qazlı su satışı məntəqələri aşkarlanmış və fəaliyyətlərinə qadağa qoyulmuş, malyariya əleyhinə profilaktik tədbirlər aparmaq üçün tədbirlər görülmüşdür.

Hesabat dövründə Baytarlıq İdarəsi, Dezinfeksiya stansiyası və Taun Əleyhinə şöbə öz işlərini qanunvericiliyə və təsdiq olunmuş profilaktiki tədbirlərə uyğun qurmuşlar.

Cari ilin 9 ayında şəhər Mədəniyyət və Turizm şöbəsi tərəfindən mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni avadanlıqlarla təchizatı, binaların təmiri sahəsində müəyyən işlər görülmüşdür.

Gənclər arasında idmanın geniş yayılması, müxtəlif idman yarışlarının keçirilməsi sahəsində bir sıra işlər görülmüş, nailiyyətlər əldə olunmuşdur. Hesabat dövründə Gənclər və İdman İdarəsinin nəzdindəki idman məktəblərinin yetirmələri bir sıra uğurlar qazanmışlar. Ümumilikdə müxtəlif idman növləri üzrə ötən müddətdə 13 qızıl, 10 gümüş, 19 bürünc medal qazanılmışdır.

2016-cı ilin 9 ayının yekunları göstərir ki, şəhərin ümumi sosial-iqtisadi inkişaf səviyyəsi saxlanılmışdır.

Sonda natiq qeyd etmişdir ki, ölkə başçısının yekun nitqində qeyd etdiyi kimi, aparılan işlərdə vətəndaşlar da fəal iştirak etməli, ictimai nəzarət gücləndirilməlidir. Sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradılmalı, ilin sonuna qədər fonda nəzərdə tutulmuş layihələrə tam həcmdə kredit verilməlidir. Bütün sahələrdə potensiallar üzrə çıxarılmalı və istifadə olunmalıdır.

Cənab Prezidentin qarşımıza qoyduğu bütün tələbləri vaxtında icra etməklə ili uğurla başa vurmaq üçün mingəçevirlilər əllərindən gələni əsirgəməyəcəklər.

**İlham PƏNAHOV,**
**"Respublika".**